“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV



# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 2 (21) ✦ 28 fevral 2026-cı il



## Balakəndə “Gənclər gələcəyimizdir” adlı tədbir keçirilib










Bu gün Balakən Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası rayon təşkilatı, rayon üzrə gənclər və idman sektoru, Gənclər Evi Sosial Xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə 2 Fevral-Azərbaycan Gəncləri Gününə həsr olunmuş “Gənclər gələcəyimizdir” adlı tədbir keçirilib.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, YAP fəalları, qazilər və fəal gənclər iştirak edib. Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının inzibati binasında keçirilən tədbirdə iştirakçılar əvvəlcə gənclərin əl işlərindən ibarət sərgi və xaricdə yaşayan gənclərin video təbriklərinə baxıblar. Daha sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə məruzə ilə çıxış edən Balakən rayonu üzrə gənclər və idman sektorunun müdiri vəzifəsini müvəqqəti icra edən baş məsləhətçi Sarxan Hacıyev rayon gənclərinin gördüyü işlər, respublikanın ictimai-siyasi həyatında gənclərin rolu, ölkə idmanında rayon gənclərinin təmsilçiliyi ilə bağlı tədbir iştirakçılarına məlumat verib.

Digər çıxış edənlər Vətən Müharibəsi Qəhrəmanı Fərid Əliyev, Balakən Dövlət Peşə Təhsili Mərkəzinin direktor müavini Aysel Padarova, Balakən regional ASAN Xidmət Mərkəzinin əməkdaşı Aynur Gülüyeva və fəal gənc Ayşə Qarayeva Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Sərəncamına əsasən, fevralın 2-sinin Azərbaycan Gəncləri Günü elan edilməsindən, gənclərin respublikanın ictimai-siyasi həyatında fəal iştirakından, müxtəlif sahələrdə qazandıqları uğurlardan danışıblar. Bildirilib ki, 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazıblar.

Rayon rəhbəri Natiq Ağayev çıxışında Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin inkişafına tarixi bir töhfə verdiyini qeyd edib. Vurğulanıb ki, müstəqil Azərbaycan dövləti gənclərin bacarıq və intellektual potensialının üzə çıxarılması üçün hər zaman geniş imkanlar yaradıb, bu təbəqəyə xüsusi diqqət və qayğı göstərib. Dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə intellektual, vətənpərvər, savadlı yeni nəsil yetişmişdir. Bildirilib ki, dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirir. Rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev gəncləri əlamətdar gün münasibətilə təbrik edib, onlara təhsildə, fəaliyyət göstərdikləri sahələrdə yüksək nailiyyətlər arzulayıb.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına qəbul olmuş gənclərə partiya vəsiqələri, həmçinin bir qrup fəal gəncə Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

**Yeni Balakən**

## Balakəndə Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb











Balakən rayonunda Xocalı soyqırımı faciəsinin 34-cü ildönümü ilə bağlı silsilə tədbirlər keçirilib.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev rayonda məskunlaşan Xocalı sakinləri ilə görüşüb. Rayon rəhbəri bildirib ki, Xocalı soyqırımı insanlıq tarixinin qanlı səhifəsidir. Bu faciə təkcə Azərbaycan xalqına qarşı deyil, ümumbəşəri dəyərlərə, insan hüquqlarına və beynəlxalq hüquq normalarına qarşı törədilmiş cinayətdir. Qeyd edilib ki, Vətən müharibəsi və antiterror tədbirlərində qazanılan Zəfər sayəsində torpaqlarımız işğaldan azad olunaraq suverenliyimiz təmin edilib. 2023-cü il oktyabrın 15-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Xocalıda Azərbaycanın şanlı Dövlət Bayrağının ucaldılması tarixi ədalətin təntənəsi idi. Bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, şanlı Azərbaycan Ordusunun düşmən üzərində qazandığı tarixi Zəfərin qürurunu yaşayır. Öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanın azad olunmuş ərazilərində həyata keçirilən quruculuq və bərpa işləri, insanların öz doğma yurdlarına qayıdışı həm də tarixi ədalətin təntənəsidir.

Saat 17:00-da Azərbaycanın bütün ərazisində olduğu kimi, Balakən rayonunda da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Faciənin ildönümü ilə əlaqədar rayon ərazisində nəqliyyatın və piyadaların hərəkəti bir dəqiqəlik dayandırılıb.

Daha sonra Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, icra hakimiyyətinin əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, müharibə iştirakçıları, din xadimləri, rayon ictimaiyyətinin nümayəndələri Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar ağacəkmə aksiyasında iştirak ediblər. Aksiya zamanı Yevlax-Zaqatala-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Qazbinə kəndi ərazisindən keçən hissəsində həmişəyaşıl şam və şabalıd ağacları əkilib. Yeni əkilən ağaclar suvarılıb, mövcud ağacların dibi yumşaldılıb və yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilib.

**Yeni Balakən**

# Balakəndə “Mədəniyyət Konsepsiyası–2040: Ənənədən Gələcəyə”adlı tədbir keçirilib







Balakən Rayon Mədəniyyət Mərkəzində “Mədəniyyət Konsepsiyası-2040: Ənənədən Gələcəyə” başlığı altında tədbir təşkil olunub.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, rayon hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, kollektivlər, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə rayon Mədəniyyət Mərkəzinin foyesində xalçaçılıq, dekorativ tətbiqi sənət, ağac üzərində oyma, tikmə, toxuculuq nümunələri, təbii dəridən ibarət əl işləri, həmçinin rəsm əsərləri nümayiş etdirilib. Burada yerli ustalar öz əl işlərini və yaradıcılıq nümunələrini təqdim edərək iştirakçılara Balakənin zəngin sənətkarlıq ənənələri və milli mədəni irsi ilə daha yaxından tanış olmaq imkanı yaradıblar.

Eyni zamanda tədbirdə “Azərbaycan Mədəniyyəti-2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası haqqında məlumat verilib. Konsepsiyanın milli-mənəvi dəyərlərin qorunmasını təmin edən müasir mədəniyyət modelinin formalaşdırılması, habelə mədəniyyət sahəsində sistemli və dayanıqlı inkişafın təmin edilməsi məqsədilə qəbul edildiyi bildirilib. Qeyd olunub ki, Konsepsiya milli kimliyin qorunması, qloballaşma şəraitində Azərbaycan mədəniyyətinin rəqabət qabiliyyətinin artırılması və gələcək nəsillərə ötürülməsi baxımından fundamental əhəmiyyət daşıyır.

Tədbirin bədii hissəsində Balakən Rayon Mədəniyyət Mərkəzinin əməkdaşlarının, “Cahan” avar xalq kollektivinin, “Fidanlar” rəqs qrupu, “Nənələr” ingiloy və “Ebel” avar folklor qruplarının çıxışları, eləcə də müğənnilərin ifasında rəngarəng musiqi nömrələri təqdim olunub.

**Yeni Balakən**

# BALAKƏNDƏ DİLƏNÇİLİK: VİCDANI SARSIDAN MƏNZƏRƏ

Balakənin gündəlik həyatında artıq adiləşmiş, lakin heç vaxt adiləşməməli olan bir mənzərə var: dilənçilər. Küçələrdə, prospektlərdə, bazar önündə, xəstəxana girişində — demək olar ki, hər yerdə qarşımıza çıxırlar. Bu insanlar sadəcə yardım istəmir, onlar cəmiyyətin aynasıdır: sosial problemlərin, hüquq pozuntularının, vicdan sınağının aynası.

## Sosioloqlar Dilənçiliyin Beş Növünü Ayırd Edir:

**1. Əmək qabiliyyəti olmayan fiziki qüsurlu və ya xəstə şəxslər.**

**2. Narkomaniya, alkoqolizm və ailə qarşıdurmaları səbəbilə evsiz qalanlar.**

**3. İnsan alverinin qurbanları — dilənçiliyi peşəyə çevirənlər.**

**4. İşsizlik və ya tənbəllik səbəbilə çalışan, lakin ehtiyaclarını ödəyə bilməyənlər.**

**5. Ağır ailə problemləri, xəstəlik və digər səbəblərlə məcbur qalanlar.**

Bu kateqoriyalar dilənçiliyin səbəblərini anlamağa kömək etsə də, Balakəndə müşahidə etdiyimiz mənzərə daha acınacaqlıdır. Dilənçilər arasında dələduzlar və kölələr əsas qruplardır. Dələduzlar bu işi gəlir mənbəyinə çevirənlərdir. Kölələr isə — xüsusilə uşaqlar — bu sistemin qurbanlarıdır.

## Balakənin Dilənçilik Xəritəsi

H.Əliyev prospekti, S.Gözəlov küçəsi, “Qalaktika” ərazisi, bazar önü, xəstəxana girişi — bu yerlər artıq dilənçilərin “iş nöqtələri”nə çevrilib. Hər birinin bir hekayəsi var: “Uşağım xəstədir”, “Allah balanı saxlasın”, “Allah rızası üçün”... Bəziləri qutu qoyur, bəziləri isə uşaqları önə çəkir. Ən acınacaqlısı isə azyaşlıların dilənçiliyə cəlb edilməsidir.

## Uşaqların İstismarı: Cinayət və Köləlik

Bu gün bazardan Bayraq meydanına gedərkən 9-13 yaş arası bir neçə uşaq dilənçi ilə qarşılaşdım. Soruşduğum bir oğlan “Məlikzadədən” olduğunu dedi. Bəziləri Qaxdan, bəziləri Yevlaxdan gəlmişdi. Bu uşaqların bu işi özbaşına görməsi mümkün deyil. Onları bura gətirən, yönləndirən, axşam əlindəkini alan “müdürlər” var. Bu, sadəcə inzibati xəta deyil — cinayətdir. Uşağın hüquqlarının pozulması, onun istismarı, köləliyə məcbur edilməsidir.

Halbuki bu uşaqlar məktəbdə olmalı, təhsil almalı, normal vətəndaş kimi yetişməlidirlər. Onların gələcəyi qorunmalı, bilik və savadla silahlanmalıdırlar.

## Hüquqi Perspektiv: Qanun Nə Deyir?

Azərbaycan Respublikasının qanunvericiliyinə görə, dilənçiliyə sövq etmə, xüsusilə azyaşlıların bu işə cəlb edilməsi cinayət məsuliyyəti yaradır. Bu, uşaq hüquqlarının kobud şəkildə pozulmasıdır. Uşağın təhsil alma hüququ, normal inkişafı, təhlükəsizliyi — hamısı bu istismar nəticəsində əngəllənir.

## Cəmiyyətin Reaksiyası: Laqeydlik və Ya Vicdan?

Bəzən insanlar bu mənzərəni görməməzlikdən gəlir, bəzən isə “yazıqları gəldi” deyib pul verir. Amma bu yardım, əslində, istismarın davamına xidmət edir. Həqiqi yardım — bu uşaqları bu sistemdən çıxarmaq, onları təhsilə, normal həyata qaytarmaqdır.



## Balakənə Layiq Görüntü: Dilənçisiz Küçələr

Balakən 200-ə yaxın şəhidin, beş Vətən Müharibəsi Qəhrəmanının yurdudur. Bu torpağın adına yaraşmayan görüntüləri birlikdə dəyişməliyik. Hökumət, vətəndaş, cəmiyyət — hamımız əl-ələ verərək bu sosial yaraya son qoymalıyıq. Dilənçisiz Balakən tablosu yaratmaq mümkündür — yetər ki, istək və iradə olsun

## Nəticə: Hər Kəsin Məsuliyyəti Var

Bu yazı bir çağırışdır — vicdanlara, qanunlara, cəmiyyətə. Uşaqların göz yaşları, dilənən qadınların susqunluğu, yaşlıların ümidsiz baxışları — bunlar sadəcə görüntü deyil, bir SOS siqnalıdır. Bu siqnalı eşidək. Balakəni bu yükdən azad edək.

**Ramazan Abal**



# Əli Ansuxski – Dövlətə sədaqətin və xeyirxahlığın simvolu

Müstəqil Azərbaycanın dövlət quruculuğu salnaməsində özünəməxsus iz qoymuş, xalqın rəğbətini qazanmış fədakar dövlət xadimi, siyasətçi və tanınmış xeyriyyəçi Əli Abdulqədir oğlu Ansuxskinin faciəli ölümündən düz 30 il keçir. 1996-cı ilin 26 fevralında Bakının mərkəzində amansız sui-qəsd nəticəsində həyatdan vaxtsız qoparılan Əli Ansuxski, ölkəmizin ən mürəkkəb və taleyüklü illərində sarsılmaz dövlətçilik mövqeyi ilə seçilən şəxsiyyətlərdən biri idi.

O, Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna dərindən inanmış və bu yolun ən sadiq tərəfdarlarından biri kimi ölkədə sabitliyin bərqərar olması, qanunçuluğun möhkəmləndirilməsi naminə var qüvvəsi ilə çalışmışdır. Milli Məclisin deputatı olduğu dövrdə yalnız qanun yaradıcılığı prosesində deyil, həm də xalqla dövlət arasında möhkəm körpülərin qurulmasında müstəsna rol oynamışdır. Onun təşəbbüsü ilə keçirilən xeyriyyə aksiyaları bu gün də dərin hörmətlə xatırlanır.

Təkcə Balakən və Zaqatala bölgəsində deyil, bütün respublikada böyük nüfuza malik olan Əli Ansuxski, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli birlik və həmrəylik siyasətinin ən fəal təbliğatçısı və icraçısı kimi tanınırdı. Onun xeyriyyəçilik fəaliyyəti, kimsəsizlərə və ehtiyacı olanlara göstərdiyi maddi-mənəvi dəstək, bölgənin infrastrukturunun yenilənməsindəki şəxsi təşəbbüsləri onu insanların qəlbində əbədiləşdirmişdir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün bərpası, ölkəmizin regionun ən qüdrətli dövlətinə çevrilməsi, vaxtilə Əli Ansuxski kimi dövlətə sadiq insanların ən böyük arzusu idi. Müzəffər Ali Baş Komandan bu arzunu gerçəkləşdirərək istiqlalımızı möhkəmləndirdi. Şübhəsiz ki, bu gün Əli Ansuxskinin də ruhu şaddır.

Onun vəfatından 30 il keçməsinə baxmayaraq, xatirəsi həm dövlət səviyyəsində, həm də təmsil etdiyi xalqın yaddaşında ehtiramla anılır. Əli Ansuxski Azərbaycan dövlətçilik tarixinə cəsarətli millət vəkili, sadiq silahdaş və böyük vətənpərvər kimi adını həkk etdirmişdir.

Əli Ansuxski – dövlətə sədaqətin, xalqa xidmətin və xeyirxahlığın parlaq nümunəsi olaraq yaddaşlarda yaşayır. Onun ömür yolu gələcək nəsillərə bir örnəkdir. Ruhu şad olsun!

**Yeni Balakən**

YENİ BALAKƏN



# NARKOMANİYAYA QARŞI MÜBARİZƏ: HÜQUQİ MÜSTƏVİDƏ

Narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanın qlobal problemlərindən biridir. Narkomaniya cəmiyyətin mənəvi və intellektual potensialının yoxa çıxmasına, genefondun tənəzzülünə və digər bir sıra mənfi nəticələrə gətirib çıxarır. Narkomaniyanın gələcək nəsillərin taleyində mənfi rolunu görən Ümummilli lider Heydər Əliyev qeyd edirdi: "Biz dünyada ümumbəşəri problemlərin tez həll olunmasının tərəfdarıyıq və bundan sonra da bütün insanlar üçün böyük təhlükə olan narkomaniya və narkobiznеslə mübarizənin ön sıralarında olacağıq". Respublikamızda 2022-ci ildə 10665, 2023-cü ildə 10057, 2024-cü ildə 8863 sayda bu kateqoriya cinayət törədilmişdir. Maraq üçün qeyd edək ki, Balakən rayonunda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 2024-cü ildə 65, 2025-ci ildə 59 cinayət hadisəsi törədilmişdir. Narkomaniyaya qarşı mübarizənin aparılması ictimai-siyasi, hüquqi əhəmiyyət kəsb etməklə ölkəmizdə də bu sahədə ciddi addımlar atılmaqdadır. Belə ki, Ümummilli lider Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 26 avqust 1996-cı il tarixli 485 №-li Fərmanı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Komissiya narkomaniyaya qarşı mübarizədə dövlət siyasətini həyata keçirilməsini təmin etməklə, maarifləndirmə və təbliğat işlərini həyata keçirir. Sözügedən mübarizənin daha səmərəli aparmaq üçün beynəlxalq əməkdaşlığın aparılması və təkmil qanunvericilik bazasının formalaşdırılması zəruri idi. Dövlətimiz 1 dekabr 1998-ci il tarixli qanunla BMT-nin "Narkotik vasitələr haqqında" Konvensiyasına, 16 fevral 2001-ci il tarixli qanunla "Narkotik maddələrin qəbul edilməsi və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə əməkdaşlıq haqqında" Parsial Sazişə qoşulmuşdur. 28 iyun 2005-ci il tarixdə isə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların dövriyyəsi haqqında" qanun qəbul edilmişdir. Ümumilikdə, bu sahədə 49 qanun, 21 fərman, 67 sərəncam, 5 dövlət proqramı, Nazirlər Kabinetinin 40 qərarı qəbul edilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi 30 dekabr 1999-cu ildə qəbul edilən zaman narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə 26-cı fəsil (234-240-ci maddələr) yer verilmişdir. CM-in 234-cü maddəsi qanunsuz olaraq narkotik vasitəni, psixotrop maddəni və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satmanı, 235-ci maddə həmin predmetləri talama və ya hədə-qorxu ilə tələb etməni, 236-cı maddə narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhrik etməni, 237-ci maddə qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etməni, 238-ci maddə onların istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlamanı, 239-cu maddə narkotik vasitə və psixotrop maddə əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırmanı və nəhayət, 240-cı maddə güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsini qadağan edir. 1999-cu ildən bu günə qədər qeyd etdiyimiz maddələrin təkmilləşdirilməsi istiqamətində mühüm əlavə və dəyişikliklər edilmişdir. Məsələn, 20 oktyabr 2017-ci il tarixli Qanunla CM-nin 234-cü maddəsi ilə qadağan olunan əməllərin dairəsi genişlənərək hazırki vəziyyətə gətirilmiş, 26 aprel 2022-ci il tarixli qanunla satış məqsədi olmadan narkotik vasitələrin, psixotrop maddələr və onların prekursorlarını külli miqdarda əldə etmə, hazırlama, saxlama, daşıma, emal etmə əməli CM-ə daxil edilmiş və 3 ildən 8 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmuşdur. Eyni əməl xeyli miqdarda törədildikdə isə 3 ilədək azadlıqdan məhrumetmə ilə və ya 1 ildən 3 ilədək azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır. Müasir dövrümüzdə insanlar mediadan və sosial şəbəkələrdən çox geniş şəkildə istifadə edirlər. Bunun müsbət cəhətləri ilə yanaşı, mənfi nəticələri də qaçınılmazdır. Bunlardan biri də məhz narkotik vasitələrin satışı zamanı mediadan, sosial şəbəkələrdən vasitə kimi istifadə edilməsi, habelə həmin maddələrin istehlakına sosial şəbəkələr və media vasitəsilə təhrik etmədir. Bu halların qarşısını almaq üçün 29 aprel 2022-ci il tarixli qanunla CM-ə 234.4.4-cü maddə əlavə edilmişdir. Qanuna əsasən, bu tip cinayətlərin mediadan, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilməsinə görə 5 ildən 12 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Göstərilənlərdən əlavə narkomaniya ilə mübarizədə mühüm addımlardan biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 sentyabr 2025-ci il tarixli, 721 №-li Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq etməsi idi. Narkomaniya ilə bağlı sayca 5-ci olan bu Proqramda qeyd edilir ki, onun əsas məqsədi müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası sahəsində yeni üsulların tətbiqi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və digər kompleks tədbirlərin həyata keçirilməsindən ibarətdir. Proqramda, həmçinin, qlobal trendlər, mövcud vəziyyətin təhlili, hədəf göstəriciləri, əsas məqsədlər, prioritet istiqamətlər, maliyyələşdirmə məsələləri və tədbirlər planı göstərilmişdir. Sözügedən sənəddə digərləri ilə yanaşı, cinayətkarlıqla mübarizə aparan Azərbaycan Respublikasının Baş Prokurorluğuna da aşağdakı tədbirlərin keçirilməsində iştirak etmək tövsiyə olunmuşdur: ölkəyə qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınmasının qarşısının alınması istiqamətində əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi; sözügedən predmetlərin qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində beynəlxalq təcrübədən istifadə etməklə əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədilə seminarların, təlimlərin və digər tədbirlərin keçirilməsi; cinayət mühakimə icraatı zamanı belə cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin öyrənilməsi; narkotik vasitələrin və psixotrop maddələrin gizli pərakəndə satış şəbəkəsinin ifşası və bu cinayəti törədən şəxslərin vaxtında məsuliyyətə cəlb edilməsi istiqamətində təşkilati və praktiki tədbirlərin gücləndirilməsi; cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə bağlı normaların tətbiqi təcrübəsinin ümumiləşdirilməsi və onların tətbiqinə nəzarətin gücləndirilməsi, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə,narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi; narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbulun qarşısının alınmasından ötrü işəgötürənin məsuliyyətinin artırılması məqsədilə normativ bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi və s.

Narkomaniya ilə mübarizədə effektiv üsullardan biri də maarifləndirmə işlərinin aparılmasıdır. Məhz media ictimaiyyəti narkotik vasitələrin yaratdığı faciələr barədə cəmiyyəti məlumatlandırır. Eyni zamanda narkomaniyaya qarşı təbliğat işinin aparılmasında sosial şəbəkələrin imkanlarından geniş istifadə edilməsi, müvafiq verilişlərə həkim-narkoloqların cəlb edilməsi, aidiyyəti dövlət qurumları ilə media subyektləri arasında əməkdaşlığın daha da gücləndirilməsi, həmçinin qeyri-hökumət təşkilatlarına ayrılan qrant layihələr hesabına effektiv və təsirli yeni sosial çarxların hazırlanması, onların mediada geniş işıqlandırılması vacib faktorlardandır. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizədə dövlət orqanları ilə yanaşı, cəmiyyət və media subyektləri aktiv iştirak etdiyi halda, dövlətin narkomaniya ilə mübarizədə apardığı siyasət öz töhfəsini verə bilər.

Bu sahədə ideoloji işlərin aparılması istiqamətində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Rayon Komissiyası müntəzəm iş aparır.

**Famil Əhmədli**
**Balakən rayon prokurorluğunun müstəntiqi**



# Balakəndə şəhid Cavanşir Həsənovla vida mərasimi keçirilib





Balakən rayonunda uzun illər itkin kimi qeydiyyatda olan I Qarabağ müharibəsi şəhidi Cavanşir İsrafil oğlu Həsənovun nəşi ailəsinə təhvil verilib və bu gün Şəhidlər xiyabanında dəfn olunub.

Vida mərasimində Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

1967-ci ildə Balakənin Hənifə kəndində dünyaya gələn Cavanşir Həsənov könüllü olaraq Qarabağ müharibəsinə qatılıb. 1992-ci il iyunun 12-də Ağdam rayonu Surxavənd kəndi istiqamətində gedən döyüşlərdə itkin düşən qəhrəmanımızın taleyi uzun illər boyu ailəsi və yaxınları üçün bir ümid işığı olub. Bu gün həmin ümid gerçəyə çevrildi – şəhidimizin məzarı var, adı torpağında əbədiləşdi.

Şəhidin ailəsi üçün bu gün həm kədər, həm də qürur günü oldu. İllərlə yolunu gözlədikləri ata, övlad, qardaş nəhayət doğma torpağa qovuşdu. Onun oğlu – atasının adını daşıyan Cavanşir – atasını görməsə də, bu gün onun qəhrəmanlığını bütün Balakənlə birlikdə yaşadı.

Şəhid Cavanşir Həsənovun nəşinin tapılması və şəxsiyyətinin müəyyən olunması dövlətimizin şəhidlərimizə, itkin düşmüş soydaşlarımıza göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Mərasimdən sonra rayon rəhbərliyi Şəhidlər xiyabanında aparılan yenidənqurma işləri ilə tanış olub, görüləcək işlər barədə tapşırıqlar verib.

**Yeni Balakən**

# Yaxşı rəhbəri qoruyaq – Balakən üçün dəyərli bir fürsət



Balakən rayon icra hakimiyyətində hər həftənin üçüncü günü rayon rəhbəri tərəfindən vətəndaş qəbulu keçirilir. Bu qəbul günləri sadəcə bir inzibati prosedur deyil, insanlarla dövlət arasında körpü rolunu oynayan mühüm bir məqamdır.

Uzun illər ərzində əvvəlki rəhbərlik dövründə həll olunmamış məsələlər, yanlış yanaşmalar, məmur səlahiyyətlərindən sui-istifadə halları vətəndaşlarda hökumətə inamı azaldırdı. Lakin yeni təyin olunan icra başçısı Natiq Ağayevin dövlət adamı kimi səmimiyyəti, rayona və insanına sevgisi, hər bir vətəndaşa ağsaqqal kimi yanaşması bu inamı yenidən bərpa etdi. Onun hər qəbulda insanları dinləməsi, dərdlərinə şərik olması, səmimi davranışı Balakənlilərdə rəhbərə, rəhbərin timsalında isə hökumətə güvən yaratdı.

Bu gün hər qəbulda çox sayda vətəndaş iştirak edir. İnsanlar inanırlar ki, onların problemi diqqətlə dinləniləcək, həll yolları araşdırılacaq. Amma unutmamalıyıq: Natiq müəllim də insandır. O da yorulur, hər gün müxtəlif dərdləri dinlədikcə ürəyi yüklənir. Onun məqsədi Balakən üçün keyfiyyətli iş görmək, vicdanlı məmur kimi xalqa xidmət etməkdir.

Təəssüf ki, bəzən vətəndaşlar qəbula aidiyyatı olmayan məsələlərlə gəlirlər. Kimi iş yerində ona "çömçəquyruq" deyildiyini şikayət edir, kimi bankdan kredit götürmək üçün icra hakimiyyətindən zaminlik istəyir, kimi isə şəxsiyyət vəsiqəsində ünvan səhv yazıldığına görə icra başçısına müraciət edir. Bu cür məsələlər nə icra hakimiyyətinin səlahiyyətinə daxildir, nə də rəhbərin həll edə biləcəyi problemlərdir. Belə müraciətlər həm digər vətəndaşların vaxtını alır, həm də rəhbəri lazımsız yorğunluğa salır.

Unutmayaq: icra başçısının əlində sehirli çubuq yoxdur ki, istənilən problemi bir toxunuşla həll etsin. O, sovet dövrünün birinci katibləri deyil ki, kolxoz sədrinə tapşırıq verib hər işi təşkil etdirsin. Bu günün idarəetmə sistemi fərqlidir, hər problemin öz aidiyyatı qurumu var.

Ona görə də gəlin yaxşı rəhbəri qoruyaq. Onu mənasız məsələlərlə yormayaq. Tanış-bilişlərimizi də başa salaq ki, qəbula yalnız həqiqətən icra hakimiyyətinin səlahiyyətinə aid olan problemlərlə gəlsinlər. Kiçik, şəxsi, aidiyyatsız məsələlər üçün doğru ünvanlara müraciət etsinlər.

Balakən bu gün şərəfli, vicdanlı bir rəhbərin diqqətindədir. Bu fürsəti dəyərləndirək. Çünki yaxşı rəhbər hələ bizə çox lazımdır.

**Ramazan Abal**

# Balakəndə qanvermə aksiyası keçirilib



Fevralın 4-də Balakən Rayon Mərkəzi Xəstəxanasında qanvermə aksiyasın təşkil olunub.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi “Respublika Qan Bankı” Publik Hüquqi Şəxsin Şəki regional bölməsinin həkim briqadası tərəfindən həyata keçirilən aksiya hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədi daşıyıb.

Aksiyada Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların əməkdaşları, gənclər, o cümlədən ictimaiyyət nümayəndələri könüllü iştirak ediblər.

Əvvəlcə hər bir donorun sağlamlığı yoxlanılıb. Müayinə nəticəsində səhhəti imkan verən 97 nəfərdən qan götürülüb.

Yığılan qan ehtiyatı xüsusi laboratoriyada müayinədən keçirildikdən sonra yoxlanılaraq talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunacaqdır.

**Yeni Balakən**

# Rayon rəhbəri “Balakən Toxum” müəssisəsi ilə tanış oldu



Balakən Rayon İcra Hakimiyyətinin başçısı cənab Natiq Ağayev rayonda kənd təsərrüfatının inkişafına yönəlmiş yeni təşəbbüslərlə tanış olub. O, “Balakən Toxum” MMC tərəfindən təsərrüfatçılara təqdim edilən, Türkiyə Respublikasından gətirilmiş müasir kənd təsərrüfatı aqreqatlarına baxış keçirib.

Yeni, çoxfunksiyalı aqreqatlar yalnız Balakən rayonunda fəaliyyət göstərən fermerlər üçün deyil, həm də ölkənin digər bölgələrində çalışan təsərrüfatçılar üçün lizinq yolu ilə əlçatan olacaq. Bu, kənd təsərrüfatında məhsuldarlığın artırılması və müasir texnologiyaların tətbiqi baxımından mühüm addım kimi qiymətləndirilir.

Başçı həmçinin müəssisənin toxum paketləmə sahəsi ilə də tanış olub. Burada yüksək reproduksiyalı arpa, buğda və qarğıdalı toxumları hazırlanaraq təsərrüfatçılara təklif olunur. Müəssisənin fəaliyyəti bölgədə kənd təsərrüfatının keyfiyyətli toxum təminatını gücləndirməklə yanaşı, fermerlərin məhsuldarlığını artırmağa xidmət edir.

Hər iki müəssisənin rəhbəri, Türkiyə Respublikasının vətəndaşı Sərxan Kəltəpə yaradılmış investisiya şəraitindən məmnunluğunu ifadə edib. O, yeni layihələr barədə məlumat verərək, gələcəkdə daha geniş miqyaslı təşəbbüslərin həyata keçiriləcəyini bildirib. Sərxan Kəltəpənin irəli sürdüyü təkliflər və mövcud problemlər dinlənilib, onların həlli istiqamətində müzakirələr aparılıb.

Bu səfər Balakən rayonunda kənd təsərrüfatının inkişafına göstərilən diqqətin bariz nümunəsi olmaqla, yerli və xarici investorların əməkdaşlığının daha da güclənməsinə şərait yaradır.

**Yeni Balakən**

# KAMAL MƏMMƏDOV – ŞƏHİDLİK ZİRVƏSİNƏ UCALAN BİR ADIN HEKAYƏSİ



Balakənin dağlarının qoynunda, saf bulaqları olan Qullar kəndində 1998-ci ilin yayında bir uşaq dünyaya gəldi. Adı Kamal idi. Bu ad sadəcə bir söz deyildi – kamilliyin, igidliyin və Vətən yolunun işarəsi idi.

Kamal uşaqlıqdan fərqli idi. Çox danışmaz, çox dinləyərdi. Baxışlarında bir dünyanın səssizliyi gizlənirdi. Təbiətin qoynunda böyüyən bu uşaq torpağın nəfəsini, dağın gücünü, bulağın saflığını öz ruhuna hopdurmuşdu. Hələ o illərdə onun qəlbində Vətən sevgisinin ilk işartıları yanırdı.

## Yolun başlanğıcı

Məktəbdə savadı, davranışı və məsuliyyəti ilə seçildi. Universiteti bitirdikdə isə qarşısında yeni bir yol açıldı – Vətənin çağırışı. O çağırışa tərəddüdsüz cavab verdi.

2019-cu ildə hərbi xidmətə yollandı. Sakitliyi burada intizama çevrildi. 2020-ci ilin payızında isə Vətən müharibəsi başladı. Kamal silaha sarıldı, ön cəbhəyə yollandı. Qardaşı Amal ilə çiyin-çiyinə döyüşdü. İki qardaş, bir amal, bir Vətən sevgisi…

## Döyüş meydanı

Cəbhədə gecə ilə gündüzün fərqi yox idi. Torpaq barıt qoxuyurdu, səma atəş səsləri ilə yarılırdı. Kamal döyüş yoldaşları ilə çiyin-çiyinə irəliləyirdi. Onun sakitliyi döyüş meydanında soyuqqanlılığa çevrilmişdi. Qorxu yox idi – yalnız məsuliyyət vardı. Ayağının altında hiss etdiyi torpaq onun uşaqlığı, anasının duası, atasının qüruru idi.

## Şəhidlik zirvəsi

2020-ci il oktyabrın 16-da Talış istiqamətində gedən şiddətli döyüşlərdə Kamal son dəfə irəlilədi. Düşmənin güclü atəşi altında geri çəkilmədi. Mövqeyini tərk etmədi. O an bilirdi: Vətəni yaşatmaq üçün bəzən bir ömür kifayət etmir, bir can lazımdır.

## O canı Kamal verdi…

Kamal Məmmədov şəhidlik zirvəsinə ucalaraq Balakənin, Azərbaycanın qüruruna çevrildi. Onun adı zəfər tariximizdə,bu tarixi yaradanlardan biri olaraq əbədi yazıldı və sonsuzadək yaşayacaq. Kamal artıq yalnız bir ailənin deyil, bütöv bir elin, bir Vətənin oğludur.

## Əbədi hekayə

Hər şəhid bir hekayədir – yarımçıq qalan arzuların, amma əbədi qürurun hekayəsi.

Kamalın hekayəsi də belədir: o, öz arzularını Vətənin bütövlüyünə çevirdi.

**Aysun Motuxova**
**Bakı Qızlar Universiteti III kurs,gənc yazar**

# 2025-ci ildə Balakən rayonunun sosial və iqtisadi inkişafının göstəriciləri

**Ümumi məhsul buraxılışının həcmi** 2024-cü illə müqayisədə 2025-ci ildə *ilkin hesablamalara görə* 7,0 faiz artaraq 328105,4 min manat təşkil etmişdir. ***Məhsul buraxılışının 23,4 faizi sənaye, 0,7 faizi tikinti, 38,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,3 faizi informasiya və rabitə, 32,9 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***

2025-ci ildə **sənayedə** istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 76850,3 min manat olmuşdur. Qeyri-dövlət sektorunda istehsalın və xidmətlərin həcmi 65502,5 min manat və sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi 85,2 faiz olmuşdur. Dövlət bölməsində isə sənaye məhsulu istehsalının həcmi 11347,8 min manat olmaqla sənaye məhsulunun ümumi həcminin 14,8 faizini təşkil etmişdir.

*İstehsal edilmiş sənaye məhsulunun və göstərilmiş xidmətlərin 85,2 faizi emal sənayesinin, 13,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrinin payına düşür.*

*2025-ci ildə yüklənmiş malların həcmi 80068,0 min manat olmuş, o cümlədən öz istehsalı olan malların həcmi 76797,9 min manat təşkil etmişdir. Bununla yanaşı 2026-cı il yanvarın 1-i vəziyyətinə sənaye müəssisələrin anbarlarında öz istehsalı olan hazır məhsul qalığı 176,9 min manat olmuşdur.*

**Kənd təsərrüfatı bitkilərinin yığımı başa çatmışdır. 2025-ci ildə qarğıdalı da daxil olmaqla tarlalardan 58786,0 ton və ya 2024-cü illə müqayisədə 13,4 faiz çox dənli və dənli paxlalı bitkilər,** 10594,0 **ton (60,2 faiz az) tərəvəz,** 39905,6 **ton (2,4 faiz çox) meyvə və giləmeyvə, 3011,0 ton (54,8 faiz az) kartof,** 1905,0 **ton (54,9 faiz az) bostan məhsulları, 336,0 ton (2,4 faiz çox) üzüm, 33,0 ton (***eyni səviyyədə qalmışdır***) günəbaxan, 155,0 ton (44,6 faiz çox) tütün yığılmışdır.**

2025-ci ildə diri çəkidə 4349,5 ton ət, 22553,5 ton süd, 11035,0 min ədəd yumurta, 77,0 ton yun istehsal olunmuşdur. 2024-cü illə müqayisədə ət istehsalı 20,6 ton və ya 0,5 faiz, süd istehsalı 180,2 ton və ya 0,8 faiz, yumurta istehsalı 260 min ədəd və ya 2,4 faiz, *yun istehsalı 1,0 ton və ya 1,3 faiz artmışdır*.

2026-cı il yanvarın 1-i vəziyyətinə rayon üzrə 38431 baş qoyun və keçi, 28218 baş iribuynuzlu mal-qara, o cümlədən 13367 baş inək və camış mövcud olmuşdur.

2025-ci ildə bütün maliyyə mənbələri hesabına **əsas kapitala** yönəldilmiş investisiyaların həcmi 14240,3 min manat məbləğində olmuşdur.

**Nəqliyyat** sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ildə 790,0 min ton yük və 7953,0 min nəfər sərnişin daşınmış, 2024-cü illə müqayisədə yük daşınması 6,0 faiz, sərnişin daşınması isə 5,7 faiz artmışdır.

**İnformasiya və rabitə** sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehlakçılara 4122,0 min manatlıq və ya 2024-cü illə müqayisədə 22,0 faiz çox xidmət göstərilmişdir.

2025-ci ildə **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 337644,9 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 74626,0 min manatlıq **ödənişli xidmət göstərilmişdir. 2024-cü illə müqayisədə** əmtəə dövriyyəsi 0,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,5 faiz artmış, ticarət şəbəkəsində ***231495,8 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 106149,1 min manatlıq qeyri-ərzaq malları satılmışdır.***

2025-ci ilin yanvar-noyabr aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2024-cü ilin müvafiq dövrünə nisbətən *9,6 faiz artaraq 618,3 manat təşkil etmiş-dir.*

*Rayon* ***əhalisinin sayı*** *ötən ilin əvvəlindən 257 nəfər və ya 0,3 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə ilkin hesablamalara görə 101276 nəfərə çatmışdır.*

***Əsəbəli Alqayev***
***Balakən Rayon Statistika İdarəsinin rəisi***

**ELAN**

**Balakən rayonunun Hənifə kənd bələdiyyəsi aşağıdakı sahələr üzrə işçi qəbulunu elan edir:**

- **Mühasib**
- **Kargüzar**
- **Vergi müfəttişi**

**Ünvan: Hənifə kəndi, Hənifə Bələdiyyəsi**

**Müraciət etmək istəyən şəxslər bələdiyyəyə yaxınlaşa və ya əlaqə vasitələri ilə müraciət edə bilərlər.**

**MƏSUL REDAKTOR: Ramazan ABALOV**

**Ünvanımız: Balakən şəhər. H.Əliyev pr.40**
**www.yeni balaken.az**
**ramazanabal@gmail.com**
**Mob: 050 518 17 60**

**HESAB NÖMRƏMİZ:**
**VÖEN 3800335882**
**H/h AZ60IBAZ41040019449452514345**
**Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.**
**Kod 805959, VÖEN 9900001881.**
**M/h AZ03NABZO13501000000000002944. IBAZAZ2X**

**Qeydiyyat №: 7CADF329A82153**
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj 100**